

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 209 (23.371)

6 noyabr 2019-cu il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Azərbaycan nümayəndə heyəti Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin sessiyasında iştirak edib



*Fransanın Strasburq şəhərində Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 28-31 oktyabr tarixlərdə keçirilən 37-ci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir.*

Avropa Şurasına 47 üzv dövlətin 324 seçkili nümayəndəsinin iştirak etdiyi sessiyada "Daxili yer dəyişmiş şəxslərin (məcburi köçkünlərin) himayə edilməsində yerli və regional hakimiyyətlərin rolu", "Vergilərin ədalətli bölüşdürülməsi", "Yerli seçkili nümayəndələrin iş şəraiti", "Şəhərlər və kiber təhlükəsizlik", "Avropanın gələcəyində regional meyarlar və perspektivlər", "Sərhədsiz mədəniyyət: Avropa mədəni marşrutları", "BMT-nin Dayanıqlı İnkişaf Hədəfləri (Gündəlik 2030): regionların rolu", "Yerlərdə dillərin istifadəsinin vəziyyəti" və digər məsələlər müzakirəyə çıxarılmışdır. Həmçinin Konqresin sessiyasında bir sıra ölkələrdə keçirilmiş seçkilərdə Konqresin seçki müşahidə missiyalarının hesabatları, yerli və regional demokratiyanın vəziyyətinə dair bəzi üzv dövlətlərdə monitorinq hesabatlarının müzakirəsi olmuşdur.

Monitorinq Komitəsinin iclasında "Azərbaycanda yerli və regional demokratiyanın vəziyyəti haqqında" keçirilmiş müzakirələrdə Azərbaycan nümayəndə heyətinin rəhbəri Anar İbrahimov çıxış edərək son illər aparılan işlərdən danışmış, iştirakçıları maraqlandıran məsələlərə və suallara aydınlıq gətirmişdir. 2020-ci ildə Azərbaycanda yerli və regional demokratiyanın vəziyyətinin monitorinqi çərçivəsində cari fəaliyyətin davam etdirilməsi qərara alınmışdır. "Daxili yer dəyişmiş şəxslərin (məcburi köçkünlərin) himayə edilməsində yerli və regional hakimiyyətlərin rolu" adlı sənədə dair müzakirələrdə isə Azərbaycan nümayəndə heyətinin rəhbəri tərəfindən sənədə dair əlavə və düzəlişlər təqdim olunmuşdur. Həmçinin ölkəmizdə məcburi köçkünlərin vəziyyəti, onlara qayğı və problemlərinin həlli ilə bağlı görülən işlər barədə nümayəndə heyətinin rəhbəri Anar İbrahimov və üzv Samirə Hüseynova çıxış etmişlər. Sənədin qətnamə və tövsiyə hissəsinin müzakirəsi zamanı bildirilmişdir ki, sənəddə yer alan bəzi ifadələr, o cümlədən "məcburi köçkünlərin uzunmüddətli inteqrasiyası" faktiki olaraq onların vəziyyətinə dair status-kvonun saxlanmasına, Azərbaycanın timsalında Dağlıq Qarabağı və ətraf əraziləri işğal altında saxlayan Ermənistanın məsələnin həllini dondurmasına xidmət edir. Azərbaycan nümayəndə heyəti sənədə "müvəqqəti inteqrasiya" və bir sıra digər əlavələr təklif etmişdir. Müzakirələrin nəticəsi kimi bu tip müddəaların sənəddən çıxarılmasına dair məruzəçilərin təqdim etdiyi kompromis variant qəbul olunmuşdur.

Azərbaycan nümayəndə heyətinin üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yazgül Rzayeva "Ombudsman institutunun himayəsində prinsiplər (Venesiya prinsipləri)" sənədinin müzakirəsi zamanı çıxış edərək yerli və regional səviyyədə insan hüquqlarının müdafiəsi mexanizmlərinin faydasından, eləcə də Azərbaycanın Naxçıvan Muxtar Respublikasında 2005-ci ildən etibarən təsis edilmiş Ombudsman institutunun fəaliyyətindən danışmış, insan hüquqlarının qorunması üçün lazımi qanunvericilik bazasının yaradıldığını qeyd etmişdir.

Azərbaycan nümayəndə heyəti "Türkiyədə yerli və regional demokratiyanın vəziyyəti" barədə məsələnin müzakirəsində fəal iştirak etmiş, həm sənədə dair əlavələrin təqdimatında, həm də müzakirələrin gedişində qardaş ölkənin maraqlarının müdafiəsində mövqe nümayiş etdirmişdir. Azərbaycan nümayəndə heyətinin rəhbəri Anar İbrahimov bir sıra dövlətlərin və onların təmsilçilərinin yerli seçkiləri bəhanə gətirərək Türkiyəyə qarşı nümayiş etdirdikləri ədalətsiz mövqeyin qəbuledilməzliyini diqqətə çatdıraraq əlavə etmişdir ki, Avropa Şurası Konqresi məhkəmə yox, sadəcə, qitədə yerli və regional hakimiyyətlərin əməkdaşlıq platformasıdır. 2019-cu ildə Türkiyədə keçirilmiş yerli seçkilərin demokratiya sınağı olduğunu bildirən Anar İbrahimov qardaş ölkənin bu imtahandan uğurla çıxdığını, seçkilərin isə Türkiyənin uğurlarını istəməyən qüvvələr üçün demokratiya dərsi olduğunu bildirmişdir.

**"Şərq qapısı"**

*Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin 2019-cu ilin III toplanış ilkin hazırlıq kursunu bitirmiş gənc polis əməkdaşlarının andiçmə mərasimi keçirilib.*

## Gənc polis əməkdaşları and içiblər



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni oxunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Rəşad Seyidov çıxış edərək bildirib ki, son illərdə həyata keçirilən tədbirlər gənclərin müasir dünyəvi dəyərlərə uyğun, təşəbbüskar, müstəqil və mübariz ruhda tərbiyəsinə, dövlət quruculuğu işlərinə yaxından cəlb edilməsi məsələsinin ön plana çəkilməsinə xidmət edib. Daxili işlər orqanlarının fəaliyyətinə yaradılan şərait və polisin cəmiyyətdə tutduğu mövqe son dövrlər bu orqanda xidmət etmək arzusunda olanların sayını xeyli artırıb.

Qeyd olunub ki, daxili işlər orqanlarında xidmətə yeni qəbul edilən gənc əməkdaşlar qəbul edəcəkləri anda sadiq qalmalı, polis adını daim uca tutmalı, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunmasında, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, peşəkarlıqlarını artırmaq üçün daim öz üzərlərində çalışmalıdırlar.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Yusif Həsənov çıxışında bildirib ki, Orta İxtisas Polis Məktəbində təşkil olunan xüsusi hazırlıq kursları səriştəli polis əməkdaşlarının yetişdirilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli təşkilati-hazırlıq prosesidir. Gənc polis əməkdaşlarının peşəkarlıqlarının artırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcək.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin rəisi, polis polkovnik-leytenantı Kamil Məmmədəliyev çıxışında bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə yaradılan məktəb muxtar respublikanın daxili işlər orqanlarında kadr potensialının formalaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Orta İxtisas Polis Məktəbi üçün müasir tədris kompleksinin tikilərək istifadəyə verilməsi kursantların, eləcə də sıravi və kiçik rəis heyətindən olan dinləyicilərin yüksək səviyyədə təhsil almaları ilə yanaşı, onlarda dövlətə və dövlətçiliyə sədaqət, vətənpərvərlik ruhunun gücləndirilməsində də mühüm rol oynayır.

Vurğulanıb ki, ilkin hazırlıq kursunu müvəffəqiyyətlə başa vurmuş gənc polis əməkdaşları bütün xidmətləri dövrü anda sadiq qalmalı, ictimai asayişin və təhlükəsizliyin təmin olunması istiqamətində vəzifə borclarını ləyaqətlə yerinə yetirməlidirlər.

Sonra andiçmə mərasimi başlayıb, gənc əməkdaşlar təntənəli şəkildə polis andı içiblər.

Tədbirdə polis sıravisi Pərviz Məmmədov çıxış edərək gənc polis əməkdaşları adından yaradılan şəraitə və göstərilən etimada görə dövlətimizə minnətdarlıq edib.

Sonda Dövlət Bayrağı Muzeyində nümayiş etdirilən eksponatlara baxış olub.

**Nail ƏSGƏROV**

## İxrac baxımından perspektivli olan brend məhsulların istehsalının say və çeşidi artırılır

*Yerli brendin yaradılması və ona müsbət imicin qazandırılması ölkə məhsullarının cəlbediciliyinin yüksəldilməsinin ən güclü vasitələrindən hesab edilir. Belə ki, brend yüksək gəlirin əldə edilməsinə səbəb olur və ölkənin uzunmüddətli inkişafını təmin edir. Brendin əsas xüsusiyyətlərindən biri də davamlı mövcud olan böyük miqdarda sadiq istehlakçıların olmasıdır. Bunun nəticəsidir ki, brendləri olan ölkələr nəinki xarici turistləri cəlb edir, həmçinin onun məhsulları rəqabət mübarizəsində güclü dəstək əldə etmiş olur.*






Hazırda Naxçıvan Muxtar Respublikasında əmtəə nişanları, onların hüquqi təminatı, keyfiyyət standartlarına uyğunluğu, reklamı, ixracı bir sıra qanunvericilik aktları ilə, o cümlədən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Patent haqqında", "Standartlaşdırma haqqında", "Reklam haqqında", "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

Dünya bazarında Naxçıvan məhsulu haqqında məlumatlığın artırılması, keyfiyyətli yerli məhsulların ixracının stimullaşdırılması, yerli brendlərin beynəlxalq standartlara cavab verməsinin təmin olunması bu gün prioritet istiqamətlər sırasındadır. Hazırda yerli şirkətlərin getdikcə artması onları rəqiblərdən fərqlənmək, istehlakçıların diqqətini çəkmək və şüurlarında yer qazanmaq üçün çalışmağa vadar edir. Nəticədə, şirkətlər brend siyasəti yürütməklə bazarda daha çox paya sahib olmaq üçün mübarizə aparırlar. Məhsul istehsalı və xidmət sahəsində həyata keçirilən uğurlu və uzunmüddətli brend siyasəti nəticəsində artıq yaddaşlarda qalan bir çox Naxçıvan brendləri formalaşıb. Bunların sırasında "Sirab", "Badamlı", "Naxçıvan duzu", "Naxçıvan göycəsi", "Naxçıvan qovurması" və digərlərinin adlarını çəkmək olar.

Cari ilin ötən dövrü ərzində muxtar respublikadan Türkiyə, Gürcüstan, Rusiya, İran, İraq, Amerika Birləşmiş Ştatları, Küveyt, Səudiyyə Ərəbistanı, Qətər, Qırğızıstan, İspaniya, Belarus, Litva, Əfqanıstan və digər ölkələrə mineral sular, daş məhsulları, vafli və peçenyelər, plastik borular və digər tikinti ləvazimatları, həmçinin tütün məmulatları, zinət əşyaları, alüminium külçələr, meyvə-tərəvəz məhsulları ixrac olunmuşdur.

Sevindirici haldır ki, muxtar respublikanın ixracında ənənəvi məhsullarımızla yanaşı, yeni məhsullar – siqaret məmulatları, plastik tikinti materialları, zinət əşyaları, üzüm və digərləri həm də yeni ixrac istiqamətləri – ABŞ, İspaniya, Qırğızıstan, Səudiyyə Ərəbistanı, Əfqanıstan kimi ölkələr qeydə alınıb.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli Fərmanı yerli qeyri-neft məhsullarının "Made in Azerbaijan" adı altında xarici bazarlarda genişmiqyaslı təbliğinə, yerli məhsulların ixracının stimullaşdırılmasına və xarici bazarlarda tanıdılmasına şərait yaradıb. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən sahibkarların beynəlxalq tədbir, biznes-forum, sərgilərdə və ixrac missiyalarında mütəmadi iştirakı təmin edilib.

Hazırda muxtar respublikada istehsal edilən çox sayda məhsul ixrac baxımından perspektivli hesab olunur. Məhsul ixracı marketinq və reklam işinin təşkili ilə birbaşa əlaqəli olduğu nəzərə alınmaqla, sahibkarların dünya biznes mühiti ilə əlaqələrini daha da genişləndirmək məqsədilə xarici dövlətlərin rəsmi və işgüzar dairələrinin iştirakı ilə ardıcıl və ənənəvi biznes forumlar keçirilib. Cari ilin ötən dövrü ərzində ölkə daxilində və 10 xarici ölkədə keçirilən 25 beynəlxalq tədbirdə 101 sahibkarlıq subyektinin 102 nümayəndəsinin iştirakı təmin edilib. Muxtar respublikada istehsal olunan ərzaq məhsulları Almaniya Federativ Respublikasında keçirilən "Green Week" və "Anuga-2019", Birləşmiş Ərəb Əmirliklərində keçirilən "Gulfood", Rusiya Federasiyası "World food" beynəlxalq sərgilərdə və Türkiyə Respublikasında təşkil edilib, müxtəlif sərgilərdə nümayiş olunub.

Qeyd etmək lazımdır ki, 11-15 fevral 2019-cu il tarixlərdə Moskva şəhərində keçirilmiş "Prodexpo" Beynəlxalq ərzaq sərgisində "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən istehsal olunan vafli məhsulları "Ən yaxşı məhsul – 2019" qızıl mükafata layiq görülüb. Bu da muxtar respublikada istehsal edilən qida məhsullarının yüksək keyfiyyətə malik olmalarının bariz nümunəsidir.

Həmin məhsulların xarici bazarlara çıxışını təmin etmək və regionun ixrac potensialını artırmaq istiqamətində atılan addımlardan biri də xaricdə Ticarət evlərinin yaradılmasıdır. Haliyədə Riqa, Varşava, Minsk, Kiyev kimi şəhərlərdə fəaliyyət göstərən Azərbaycan Ticarət evlərində muxtar respublikada istehsal edilən unlu-qənnadı məhsulları və mineral sular nümayiş olunur. Naxçıvan Muxtar Respublikasının İqdır şəhərində Naxçıvan Ticarət Evinin istifadəyə verilməsi sahibkarlar tərəfindən istehsal olunan məhsulların təşviqi və satışına, iş adamları arasında işgüzar görüşlərin təşkilinə, ticarət söVdələşmələrinin aparılmasına və əlaqələrimizin inkişafına şərait yaradır.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

Naxçıvan xarici mediada

## Mədəniyyətlər diyarı Naxçıvandan Türkiyəyə salam



***Kiçik Qafqaz sıra dağlarının Zəngəzur və Dərələyəz silsilələri ilə əhatə olunan Naxçıvan Muxtar Respublikasının eyniadlı paytaxtı Araz çayına doğru uzanan yaşıl düzənlikdə yerləşir. Təyyarə səfərimdə ilk dəfə gedəcəyim Naxçıvan haqqında düşünürdüm. Orada nə ilə qarşılaşacağım haqda heç bir anlayışım yox idi. “Ən yaxşısı hər şeyi gedib görməkdir”, – deyə düşünərkən, sərnişinlərin “Naxçıvana düşdük” sözləri ilə birdən qəlbim döyünməyə başladı. Təyyarə uçuş-enmə zolağına enən anda içimdə inanılmaz rahatlıq hiss etdim və inanılmaz bir təbəssümlə təyyarədən endim. Mən Naxçıvandayam. Burada danışılan Azərbaycan türkcəsinin ana dilim türkcə ilə çox oxşarlıqları olsa da, mühüm fərqləri də vardır. Səfər boyunca məni gülümsədən, mehribanlığını hiss etdiyim bu şəhərdə daha nə ilə qarşılaşacağımı düşünürəm.***

Naxçıvana gələrkən, buranın yaşadığım ölkə – Türkiyə ilə sərhədi olduğunu öyrəndim. Ağrıdağın qarlı zirvəsi uzaqlardan bu məlumatı təsdiqedərcəsinə bizi salamlayırdı.

Düşünürəm ki, görəsən, Həzrət Nuhun gəmisi qədim Naxçıvan əfsanələrində deyildiyi kimi, Haçadağın, yoxsa Ağrıdağın zirvəsinə toxunub? Bu düşüncələrlə məni qarşılayan dəyərli naxçıvanlı dostlarımla şəhərin görməli yerlərinə gedirik.

Naxçıvanda möhtəşəm bir məscid tikilir. Məscidə gedən yol üzərində olan Möminə xatın türbəsi isə XII əsrdə Azərbaycan Atabəyi Şəmsəddin Eldənizin həyat yoldaşı Möminə xatının şərəfinə memar Əcəmi Əbubəkr tərəfindən inşa edilib. Türbənin xarici hissəsini bəzəyən həndəsi kompozisiyalar, firuzəyi rəngli plitələr və kufi xətti ilə yazılan “Yasin” surəsi o qədər gözəl işlənib ki, heyran qaldım.



Mən fəxr edirəm ki, o dövrün şərtləri altında bir qadın üçün belə bir abidə ucaldılıb. Ətrafa baxanda çox təsirlənirəm. Möminə xatın türbəsinin yanında yerləşən Açıq Səma Altında Muzey 2002-ci ildə qurulub. Burada Naxçıvan Muxtar Respublikasının ərazisində müxtəlif illərə aid daşdan düzəldilmiş qoç heykəlləri, daş kitabələr, müxtəlif daş fiqurlar və sənduqələr yer alıb. Tezliklə hər yeri görmək istəyirəm…

Bayraq Muzeyində 300-dən çox eksponat sərgilənir. Rəngli vitrajlar, sadə və bir o qədər də şanlı görüntü yaradır. Burada gün batışını seyr etməyi xəyal edirəm. Naxçıvanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə yaradılan muzeyə gedirik. Bizi çox gülərüzlə qarşılayırlar. Bələdçinin duyğulu şəkildə məlumat verməsi məni dərindən təsirləndirir.

1999-cu ildə qurulmuş muzeydə ümummilli lider Heydər Əliyevin uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid (1991-1993) xüsusi sənəd və materiallar, məktublar, qərar və sərəncamlar, Türkiyə Respublikası və İran İslam Respublikası ilə əməkdaşlıq sahəsində imzalanmış müqavilələrin və Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətlərinin surətləri toplanıb. Burada dahi lider Heydər Əliyevin şəxsi əşyaları da saxlanılmaqdadır. Ümumilikdə, muzeydə 4536 eksponat vardır.



Naxçıvanlılar yaşadıqları yerin inkişafına, eləcə də adət və ənənələrinə böyük əhəmiyyət verirlər. Nəzir vermək və qurbanlar kəsmək, müxtəlif dua və niyyətlər üçün ziyarət edilən Əshabi-Kəhfə gedirik. Deyilənlərə görə, vaxtilə yeddi kimsənəlirin yatdığı bu mağaradakı damcıxanada dilək dilənir və burada üstünə su damlasa, istəklərin qəbul olunacağına inanılır.

Əlbəttə ki, yavaşlamadan yolumuza davam edirik. Tarixboyu yerləşdiyi nöqtə ilə cazibə mərkəzi olmuş Naxçıvan sahib olduğu mineralları ilə, həm də şəfa mərkəzidir. Şəhər mərkəzindən 10-12 kilometr uzaqlıqdakı Duz dağının içində 110 metr dərinlikdəki mağaraları gəzərkən qısa müddətdə nəfəs aldığım duzlu havanın təsirini göstərməsi məni daha çox maraqlandırdı. Bizə məlumat verən dostlarımızdan öyrəndik ki, 1979-cu ildən xidmət göstərən fizioterapiya mərkəzinə hər il müalicə almaq məqsədilə fərqli millətlərdən yüzlərlə astma və bronxit xəstəsi gəlir. Uzaqdan gələn xəstələri oteldə yerləşdirmək üçün mehriban heyət mövcuddur. Naxçıvana heyranlığım bir daha artdı. Ən ucqar kəndlərdə belə, gözəl məktəblər var. İlk görəndə universitet olduğunu düşündüm. Lakin sonradan öyrəndim ki, məktəb binalarıdır. Məni təəccübləndirən kənd yollarının asfaltlanması, şəhərdən heç bir fərqin olmaması idi.

Batabat gölü və Üzən ada – Kiçik Qafqaz dağlarında yerləşən yaylaq yeri heyranedici idi. Təbiətin gözəl guşələrindən biri olan Batabat yaylağı, gül-çiçəkli çəmənlikləri, təbii gölü, sadə və təmiz dağ havası... Burada ən maraqlısı, təbiətin yaratdığı Üzən ada idi.

Əlincəqala möhtəşəm bir abidədir. Heyran qaldım... Bütün turistlər bu gözəlliyi görməlidirlər. Tarixiliyini qoruyaraq bərpa edilmiş,



heyranedici gözəlliyə sahib qalaya çıxmaq üçün daş pillələr düzəldilib, tam zirvəyə çatmaq istəyirsinizsə, 2700 pilləni qalxmaq lazımdır. Pilləri qalxarkən Naxçıvanın möhtəşəm mənzərələrini görə bilərsiniz. Təbii ki, qaladan günbatımını izləmək də möhtəşəmdir.

Səyahətimizin son günü – şənbə günündə yerli məhsulların nümayiş edildiyi “Ailə təsərrüfatı məhsulları” festivalına getdik. Kəndlilər – ailə təsərrüfatçıları zəhmətlə yetişdirib, ərsəyə gətirdikləri məhsulları alıcılara təqdim edirdilər. Naxçıvanda qaldığım 4 günün necə keçdiyini hiss etmədim. Oradakı gənc jurnalist dostlarımıza verdiyimiz müsahibələr, etdiyimiz söhbətlər, onların gülümsəyən simaları, bizi müşayiət edən dostlarımızın qonaqpərvərliyi çox lütfkar idi. Biz bu mədəniyyəti çox axtarırıq. Yaxşı ki Naxçıvana gəldim.

Saat Meydanında dinlədiyim möhtəşəm musiqi hələ də qulağımdadır. Əminəm ki, bu şəhərə bir daha gələcəyəm, siz də mütləq gəlin. Mədəniyyəti, şəhərin təmizliyini görün, restoranların gözəlliyinə, xüsusən səliqə-sahmana, qonaqpərvərliyə şahid olun və özlərinəməxsus yeməklərdən dadın, o vaxt mənə haqq verəcəksiniz.

**Ayten ALKAŞI**
***www.siyasalbirikim.org***

## İcbari tibbi sığortanın tətbiqi ilə bağlı maarifləndirici tədbir



*Dünən Şahbuz rayonunda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında” 2019-cu il 31 oktyabr tarixli Sərəncamından irəli gələn məsələlərin icrasını təmin etmək üçün əhalinin maarifləndirilməsi məqsədilə tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Rafael Babayev açaraq bu il noyabrın 1-dən etibarən Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılmasının əhəmiyyətindən və rayonda bu istiqamətdə görülən işlərdən danışıb.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov çıxışında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı fərman və sərəncamlara uyğun olaraq icbari tibbi sığortanın ilk dəfə Sədərək rayonunda, sonra isə Şərur və Kəngərli rayonlarında tətbiqi ilə əlaqədar ətraflı məlumat verib.

Vurğulanıb ki, Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi məqsədilə görülən işlər vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin daha da artırılmasını, səhiyyə sisteminin dayanıqlı inkişafını, əhalinin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsini və maddi rifah halının yaxşılaşmasını təmin edəcəkdir. Belə ki, Şahbuz Rayon Mərkəzi Xəstəxanasında fiber-optik xətlər vasitəsilə internet şəbəkəsi yaradılıb, 44 kompüter, 5 printer, mərkəzi server qurulub. “Səhiyyə informasiya idarəetmə sistemi” isə icbari tibbi sığortanın tətbiqində iştirak edən digər tibb müəssisələri ilə qarşılıqlı əlaqəyə imkan yaradır. Xəstəxananın Təcili tibbi yardım, Laboratoriya və Doğum şöbələri yenidən təşkil olunub, ilkin səhiyyə xidməti müasir tələblərə uyğunlaşdırılaraq qəbul həkiminin fəaliyyəti təmin edilib. Xəstəxananın maddi-texniki bazasını gücləndirmək və göstərilən tibbi xidmətin keyfiyyətini daha da yüksəltmək məqsədilə müasir tibbi avadanlıqlar quraşdırılıb. Agentliyin qeydiyyat məntəqəsi fəaliyyətə başlayıb.

Sonra agentliyin əməkdaşları Vüsal Məmmədov, Çilənay Qurbanlı müxtəlif mövzularda çıxış ediblər. Mövzu ilə bağlı slaydlar nümayiş etdirilib və tədbir iştirakçılarının sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi***

*Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqovun 13 rəsm əsəri muzeylərə hədiyyə edilib.*

## Əməkdar rəssamın əsərləri muzeylərə hədiyyə olunub

Bu münasibətlə keçirilən təqdimat mərasimində Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova qeyd edib ki, muxtar respublikada incəsənətin digər sahələri kimi, rəssamlıq sənətinin də inkişafına dövlət qayğısı göstərilir. Son illər diyarımızda rəsm festivallarının keçirilməsi, istedadlı gənc rəssamların rəsm əsərlərindən ibarət sərgilərin təşkili və tanınmış rəssamların əməyinin dövlətimiz tərəfindən layiqincə qiymətləndirilməsi rəssamlığın inkişafına göstərilən dövlət qayğısının bariz ifadəsidir.

Bildirilib ki, mədəniyyətimizin inkişafına töhfə olan muzeylərimizə eksponat hədiyyə edilməsi işi bu gün Naxçıvan Muxtar Respublikasında ənənə halını alıb. Son illər muxtar respublikada fəaliyyət göstərən muzeylərə eksponatların təhvil verilməsi Naxçıvanda mədəniyyətin təbliğinə, bu sahənin inkişafına göstərilən qayğı kimi dəyərləndirilir. Bugünkü təqdimat mərasimi də bu qəbildən olan mədəni hadisə kimi biz mədəniyyət adamlarını sevindirir.

Əməkdar rəssam Həmzə Sadiqovun yaradıcılıq yoluna nəzər salan mədəniyyət naziri qeyd edib ki, onun əsərləri Naxçıvan Dövlət Rəsm Qalereyasına, Naxçıvan Dövlət Tarix Muzeyinə, Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyinə və Qarabağlar Türbə Kompleksinə də hədiyyə edilib. Diqqətçəkən cəhət ondan ibarətdir ki, tarixi-memarlıq abidələrinin təsvirinə həsr olunan rəsm əsərlərinin bəzilərində həmin abidələrin bərpadan əvvəlki və bərpadan sonrakı təsviri verilib. Muzeylərə hədiyyə edilən rəsm əsərlərinin bəziləri rəssamlıq sənətinin portret janrında çəkilib. Digər rəsm əsərlərində isə muxtar respublikada mövcud olan tarixi-memarlıq abidələri ustalıqla təsvir edilib. Bu cür təsvir isə gələcək tədqiqatçılar üçün dəyərli fakt ola bilər.



Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru Hökumə Məmmədli qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tapşırıq və tövsiyələrinə əsasən muzey fondları daha da zənginləşdirilir. Həmzə Sadiqovun muzeyimizə hədiyyə etdiyi bu əsərlər qalereyanın fondunun zənginləşməsinə kömək etməklə yanaşı, ekspozisiyada nümayiş zamanı muzeyə gələn tamaşaçıların bədii-estetik zövqünün formalaşmasında da əhəmiyyətli rol oynayacaqdır. Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru nəcib təşəbbüsünə görə kollektiv adından Həmzə Sadiqova minnətdarlıq edib, rəssama yaradıcılığında yeni-yeni uğurlar arzulayıb.

Əməkdar rəssam Həmzə Sadiqov göstərilən diqqət və qayğıya görə minnətdarlıq edərək bildirib ki, sənət əsərlərinin rəssamlarımız tərəfindən mədəniyyət müəssisələrinə hədiyyə edilməsi rəssamların mənəvi vətəndaşlıq borcu kimi ənənə halını almalıdır.

**✍ Gülcamal TAHİROVA**

## Veteran futbolçular arasında yoldaşlıq görüşü keçiriləcək

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Futbol Federasiyasının birgə təşkilatçılığı ilə 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə Azərbaycanın veteran futbolçuları arasında yoldaşlıq



görüşü keçiriləcəkdir.

Görüşün keçirilməsində məqsəd Dövlət Bayrağı Gününün qeyd olunması, muxtar respublikada futbol idman növünün kütləviliyinin və inkişafının təmin edilməsidir. Noyabrın 9-da Naxçıvan Muxtar Respublika Stadionunda keçiriləcək oyunda “Araz-Naxçıvan” Peşəkar Futbol Klubunun veteran futbolçuları ilə Azərbaycan Futbol Veteranları İttifaqının üzvləri qarşı-qarşıya gələcəklər. Qeyd edək ki, oyun saat $15^{00}$-da baş tutacaqdır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 6 noyabr-6 dekabr 2019-cu il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dqmk@nakhchivan.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Təhsil müəssisəsi | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|---|
| | **Naxçıvan şəhəri üzrə:** | | | | |
| 6910309 | 3 №-li tam orta məktəb | Fizika | 1 | 12 | * |
| 6910314 | 3 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | * |
| 6910325 | 3 №-li tam orta məktəb | Fransız dili | 1 | 12 | * |
| 6910318 | 3 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 2 | 24 | * |
| 6910319 | 3 №-li tam orta məktəb | İnformatika | 1 | 12 | * |
| 6910316 | 3 №-li tam orta məktəb | Musiqi | 1 | 12 | * |
| 6910321 | 3 №-li tam orta məktəb | Rus dili və ədəbiyyatı | 1 | 12 | * |
| 6910312 | 3 №-li tam orta məktəb | Tarix | 1 | 12 | * |
| 6910414 | 4 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6910514 | 5 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6910714 | 7 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6910814 | 8 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6910821 | 8 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| 6911214 | 12 №-li tam orta məktəb | Fiziki tərbiyə | 2 | 24 | |
| 6911614 | 16 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6911714 | 17 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| **Cəmi:** | | **18 yer** | | | |
| | **Şərur rayonu üzrə:** | | | | |
| 6900425 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Fransız dili | 1 | 12 | |
| 6900421 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Rus dili | 1 | 13 | |
| 6920809 | Axaməd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6920825 | Axaməd kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | |
| 6920919 | Axura kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6920920 | Axura kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6920910 | Axura kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6920309 | Alışar kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6920409 | Aralıq kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6920616 | Aşağı Daşarx kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6920711 | Aşağı Yaycı kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6920713 | Aşağı Yaycı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6920725 | Aşağı Yaycı kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | |
| 6920719 | Aşağı Yaycı kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6921316 | Çomaxtur kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6921521 | Dəmirçi kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6921609 | Dərəkənd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6921610 | Dərəkənd kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6921811 | Diyadin kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6921813 | Diyadin kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6921818 | Diyadin kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6921820 | Diyadin kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6922325 | Gümüşlü kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | |
| 6922318 | Gümüşlü kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6922310 | Gümüşlü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6922407 | Havuş kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 12 | ** |
| 6922413 | Havuş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6922419 | Havuş kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | ** |
| 6922510 | Həmzəli kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6925013 | Xələc kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925025 | Xələc kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | |
| 6923709 | Qaraburc kənd ümumi orta məktəbi | Fizika | 1 | 12 | |
| 6924013 | Qorçulu kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924020 | Qorçulu kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6923213 | Maxta kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923218 | Maxta kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6923309 | Muğancıq Mehrab kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923413 | Muğanlı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923622 | Püsyan kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6923619 | Püsyan kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6923620 | Püsyan kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6923616 | Püsyan kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6924113 | Sərxanlı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924220 | Siyaqut kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6924413 | Şəhriyar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924613 | Təzəkənd kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6924713 | Tumaslı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924819 | Vərməziyar kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6924820 | Vərməziyar kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6925221 | Yengicə kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6925313 | Yeni Havuş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925309 | Yeni Havuş kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6925308 | Yeni Havuş kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6925413 | Yuxarı Daşarx kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925521 | Yuxarı Yaycı kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | ** |
| **Cəmi:** | | **55 yer** | | | |
| | **Babək rayonu üzrə:** | | | | |
| 6930320 | Araz kənd ümumi orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6930420 | Aşağı Buzqov kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6930514 | Cəhri kənd 1 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | ** |
| 6930911 | Gərməçataq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6930921 | Gərməçataq kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | ** |
| 6931019 | Göynük kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | ** |
| 6931020 | Göynük kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6931213 | Güznüt kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931513 | Kültəpə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6932516 | Qahab kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6932613 | Qaraqala kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931621 | Məmmədrza Dizə kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6931813 | Naxışnərgiz kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931818 | Naxışnərgiz kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6931821 | Naxışnərgiz kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6932213 | Nehrəm kənd 2 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6932313 | Nehrəm kənd 3 №-li tam orta məktəb | Coğrafiya | 2 | 26 | |
| 6931914 | Nəcəfəlidizə kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6932010 | Nəhəcir kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6933021 | Uzunoba kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6933421 | Yarımca kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6933511 | Yuxarı Buzqov kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6933512 | Yuxarı Buzqov kənd tam orta məktəbi | Tarix | 1 | 12 | ** |
| **Cəmi:** | | **24 yer** | | | |
| | **Ordubad rayonu üzrə:** | | | | |
| 6940121 | Ordubad şəhər 1 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| 6940409 | Aşağı Əylis kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6940418 | Aşağı Əylis kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 16 | |
| 6940419 | Aşağı Əylis kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6940420 | Aşağı Əylis kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6940614 | Azadkənd kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 14 | ** |
| 6940813 | Behrud kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6940913 | Biləv kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6941009 | Bist kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6941020 | Bist kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6941120 | Çənnəb kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | ** |
| 6941407 | Dırnıs kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 15 | ** |
| 6941409 | Dırnıs kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6941618 | Düylün kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6941620 | Düylün kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6941610 | Düylün kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6941617 | Düylün kənd tam orta məktəbi | Təsviri incəsənət | 1 | 12 | |
| 6941711 | Ələhi kənd ümumi orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6941714 | Ələhi kənd ümumi orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | ** |
| 6941712 | Ələhi kənd ümumi orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6941911 | Gənzə kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6941913 | Gənzə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6941910 | Gənzə kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 6942013 | Gilançay kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6942020 | Gilançay kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | ** |
| 6942010 | Gilançay kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6943407 | Xanağa kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 15 | |
| 6943413 | Xanağa kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6943561 | Xurs kənd tam orta məktəbi | Biologiya-Kimya | 1 | 15 | ** |
| 6943520 | Xurs kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6943562 | Xurs kənd tam orta məktəbi | Riyaziyyat-İnformatika | 1 | 15 | ** |
| 6942111 | Kələki kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6942113 | Kələki kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6942361 | Nəsirvaz kənd tam orta məktəbi | Biologiya-Kimya | 1 | 15 | ** |
| 6942413 | Nürgüt kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6942409 | Nürgüt kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6942420 | Nürgüt kənd tam orta məktəbi | İngilis dili | 1 | 22 | ** |
| 6942462 | Nürgüt kənd tam orta məktəbi | Riyaziyyat-İnformatika | 1 | 18 | ** |
| 6942509 | Nüsnüs kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6942620 | Parağa kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | ** |
| 6942763 | Pəzməri kənd ümumi orta məktəbi | İngilis dili-Alman dili | 1 | 14 | ** |
| 6942708 | Pəzməri kənd ümumi orta məktəbi | Riyaziyyat | 1 | 15 | ** |
| 6942820 | Sabirkənd kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6943010 | Unus kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6943114 | Üstüpü kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 14 | ** |
| 6943210 | Vələver kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6943320 | Vənənd kənd tam orta məktəbi | İngilis dili | 1 | 16 | |
| 6943618 | Yuxarı Əylis kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 16 | |
| 6943610 | Yuxarı Əylis kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| **Cəmi:** | | **49 yer** | | | |
| **Culfa rayonu üzrə:** | | | | | |
| 6950511 | Boyəhməd kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6950513 | Boyəhməd kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6950510 | Boyəhməd kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6950613 | Camaldın kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6950610 | Camaldın kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6950718 | Dizə kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6951211 | Gal kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6951313 | Göydərə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6951413 | Gülüstan kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6952314 | Xanəgah kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | ** |
| 6951507 | Kırna kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 12 | ** |
| 6951910 | Qızılca kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6951711 | Milax kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6952113 | Şurud kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6952120 | Şurud kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6952110 | Şurud kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6952211 | Teyvaz kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6952221 | Teyvaz kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | ** |
| 6952609 | Yaycı kənd 2 №-li tam orta məktəb | Fizika | 1 | 12 | |
| **Cəmi:** | | **19 yer** | | | |
| **Kəngərli rayonu üzrə:** | | | | | |
| 6970211 | Böyükdüz kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6970210 | Böyükdüz kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6970208 | Böyükdüz kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | |
| 6971016 | Xok kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6970411 | Qabıllı kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6970418 | Qabıllı kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6970420 | Qabıllı kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6970410 | Qabıllı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6970621 | Qarabağlar kənd 2 №-li tam orta məktəb | Rus dili | 1 | 18 | |
| 6970612 | Qarabağlar kənd 2 №-li tam orta məktəb | Tarix | 1 | 12 | |
| 6970718 | Şahtaxtı kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6970809 | Təzəkənd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6970820 | Təzəkənd kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | ** |
| 6971113 | Yeni Kərki kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6971211 | Yurdçu kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6971214 | Yurdçu kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 14 | |
| **Cəmi:** | | **16 yer** | | | |
| **Şahbuz rayonu üzrə:** | | | | | |
| 6960113 | Şahbuz şəhər 1 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6960213 | Şahbuz şəhər 2 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6960411 | Ağbulaq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6960410 | Ağbulaq kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6960513 | Ayrınc kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6960613 | Badamlı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6960919 | Daylaqlı kənd tam orta məktəbi | İnformatika | 1 | 13 | |
| 6961011 | Gömür kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961111 | Güney Qışlaq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961113 | Güney Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961109 | Güney Qışlaq kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6961110 | Güney Qışlaq kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961213 | Keçili kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961311 | Kolanı kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961308 | Kolanı kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6961410 | Kükü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961813 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961814 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6961611 | Mahmudoba kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961613 | Mahmudoba kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961711 | Nursu kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961709 | Nursu kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6961919 | Sələsüz kənd tam orta məktəbi | İnformatika | 1 | 13 | |
| 6962011 | Şada kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6962013 | Şada kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962009 | Şada kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6962018 | Şada kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 2 | 30 | |
| 6962020 | Şada kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6962010 | Şada kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6962213 | Türkeş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962218 | Türkeş kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6962219 | Türkeş kənd tam orta məktəbi | İnformatika | 1 | 13 | |
| 6962220 | Türkeş kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6962313 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962318 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | |
| 6962320 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | İngilis dili | 1 | 15 | |
| **Cəmi:** | | **37 yer** | | | |
| **Sədərək rayonu üzrə:** | | | | | |
| 6980118 | Heydərabad qəsəbə tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | |
| 6980220 | Qaraağac kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6980314 | Sədərək kənd 1 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 18 | |
| 6980318 | Sədərək kənd 1 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 5 | 90 | |
| 6980320 | Sədərək kənd 1 №-li tam orta məktəb | İngilis dili | 2 | 36 | |
| 6980420 | Sədərək kənd 2 №-li tam orta məktəb | İngilis dili | 1 | 18 | |
| **Cəmi:** | | **11 yer** | | | |
| **YEKUN:** | | **229 yer** | | | |

(*) Naxçıvan şəhər 3 №-li tam orta məktəbdə işə qəbul olunmaq üçün yalnız rus dilini mükəmməl bilən şəxslər müraciət edə bilərlər.

(**) Bu müəssisələr Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 dekabr tarixli 150 nömrəli qərarına əsasən stimullaşdırıcı tədbirlər müəyyən edilən təhsil müəssisələridir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2019-cu ilin oktyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 410020 | 41002 | 41023 | 100,1 |
| 2. | Kəngərli rayonu | 256292 | 25629 | 25635 | 100,0 |
| 3. | Naxçıvan şəhəri | 1805491 | 195563 | 195607 | 100,0 |
| 4. | Babək rayonu | 823938 | 94092 | 94104 | 100,0 |
| 5. | Şahbuz rayonu | 218367 | 23514 | 23517 | 100,0 |
| 6. | Culfa rayonu | 371394 | 37139 | 37142 | 100,0 |
| 7. | Şərur rayonu | 722838 | 77676 | 77681 | 100,0 |
| 8. | Sədərək rayonu | 87345 | 8952 | 8952 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 6902680 | 991426 | 1101870 | 111,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **11598365** | **1494993** | **1605531** | **107,4** |

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2019-cu ilin oktyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt,saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 2962 | 219,1 | 219,1 | 100,0 |
| 2. | Şərur rayonu | 2165 | 153,1 | 153,1 | 100,0 |
| 3. | Babək rayonu | 1614 | 113,8 | 113,8 | 100,0 |
| 4. | Ordubad rayonu | 968 | 68,2 | 68,2 | 100,0 |
| 5. | Culfa rayonu | 941 | 67,3 | 67,3 | 100,0 |
| 6. | Kəngərli rayonu | 832 | 59,9 | 59,9 | 100,0 |
| 7. | Şahbuz rayonu | 304 | 21,6 | 21,6 | 100,0 |
| 8. | Sədərək rayonu | 264 | 18,6 | 18,6 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 21162 | 1904,6 | 1904,5 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **31212** | **2626,2** | **2626,1** | **100,0** |

**Qeyd:** Oktyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 31 milyon 212 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 626 min 200 manat olmuş, cəmi 2 milyon 626 min 100 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerji dəyərinin 100,0 faizini təşkil edir.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 765